***Akademik Tarih ve Düşünce Dergisi*** ***Academic Journal of History and Idea***
***ISSN: 2148-2292***
***10 (6) 2023***
*https://doi.org/ 10.46868/atdd.2023.*

***Araştırma Makalesi | Research Article***
***Geliş tarihi |Received:20.10.2023***
***Kabul tarihi |Accepted:15.11.2023***
***Yayın tarihi |Published:25.12.2023***

**Pərviz Allahverdiyev**

*https://orcid.org/0009-0000-1962-8824*
*Senior Lecturer Nakhchivan State University, Azerbaijan, pervizallahverdiyev06.@gmail.com*

***Atıf Künyesi | Citation Info***

Allahverdiyev, P. (2023). Orta Ümumtəhsil Müəssisələrində Hərbi Vətənpərvərlik Tərbiyəsinin Təşkili Texnologiyası. *Akademik Tarih ve Düşünce Dergisi, 10* (6), 2782-2789.

# Orta Ümumtəhsil Müəssisələrində Hərbi Vətənpərvərlik Tərbiyəsinin Təşkili Texnologiyası

***Xülasə***

*Orta ümumtəhsil məktəblilərinin hərbi vətənpərvərlik tərbiyəsinin təşkili texnologiyasından bəhs edərkən ilk əvvəl Azərbaycan ədəbi-bədii tarixində hansı müəlliflərin bu sahədə geniş fikir səsləndirməsi, məktəblilərin hərbi vətənpərvərlik tərbiyəsini pirinsip, metod, forma və məzmunu baxımdan nə qədər əhəmiyyət kəsb etməsi nəzərdə tutulmuşdur. Bu metod, vasitə və məzmunun birlikdə şagirdlərə aşılanması onların texnologiyasında öz əksini tapmışdır. Azərbaycan pedaqoji ədəbiyyatında hərbi vətənpərvərlik tərbiyəsinin təşkili texnologiyasını ilk olaraq təhsil sistemimizə yayan X. Fətəliyev onu təhlil edərək peqaqoji, fəlsəfi və psixoloji elmi əsaslarla açıxlama gətirməklə məktəblilərin istifadəsinə, öyrənməsinə şərait yaratmışdı*r. *Bundan başqa hərbi vətənpərvərlik tərbiyəsinin texnologiyasında onun məzmununu şagirdlərin yaş kateqoriyasına görə təsnifatlandırmaqla üç yerə ayırmaq imkanı yaradılmışdır ki, aşağı 1-4, orta 5-8, yuxarı 9-11-ci sinif şagirdlərinin hərbi vətənpərvərlik tərbiyəsi sahəsində açıqlanan, bu səpgidə olan dərs, mövzu və məşğələləri necə və hansı yollarla aşılanması bir mənbə kimi öz əksini tapmışdır. Eyni zamanda məktəblilərə aşılanan hərbi vətənpərvərlik tərbiyəsinin metod və formaları onun əsas təşkili texologiyasını təşkil etmiş olur və məktəbdənkənar, sinifdənxaric bir çox işlər, tədbirlər, ekskursiyalar, gəzintilər, vidyo çarxlar, oyunlar, məruzə və çıxışlar, görüşlər zamanı öz bitgin formasını tapmış olur. Ulu öndər, Azərbaycan Respublikasını xilaskarı Heydər Əliyevin fikir və sözləri, çıxış və nitqləri müasir dövrümüzdə yeni nəsil məktəblilərin hərbi vətənpərvərlik tərbiyəsinin əsas texnologiyasını təşkil etmişdir.Hərbi vətənpərvərlik tərbiyəsində adi təlim tərbiyə prosesindən fərqli olaraq nümunə göstərmək, məşq etmək, həvəsləndirmək, vadar etmək bundan başqa digər metodların şagirdlərə aşılanması hərbi*

*vətənpərvərlik tərbiyəsinin təşkili texnologiyasını orta ümumtəhsil məktəblərində yerinə yetrilməsi məqalədə öz əksini tapmışdır.*

***Açar sözlər:*** *Hərbi Vətənpərvərlik, Məktəbli, Texnologiya, Metod, Vastələr*

## Technology of Organization of Military Patriotic Education in Secondary General Education Institutions

***Abstract***

*When talking about the technology of organizing military patriotism education of high school students, first of all, which authors in the literary and artistic history of Azerbaijan expressed broad ideas in this field, and how important is the military patriotism education of schoolchildren in terms of principle, method, form and content. Instilling these methods, tools and content together to students is reflected in their technology. X. Fataliyev, who first spread the technology of organizing military patriotism in our educational system in the Azerbaijani pedagogical literature, analyzed it and explained it on pedagogical, philosophical and psychological scientific bases, and created conditions for schoolchildren to use and learn.In addition, in the technology of military patriotism education, it is possible to divide its content into three parts by classifying it according to the age category of students, so that the lessons and topics in this format are explained in the field of military patriotism education for students of the lower 1-4th, middle 5-8th, and upper 9th-11th grades. and how and in what ways to inculcate the exercises is reflected as a source. At the same time, the methods and forms of military patriotism education instilled in schoolchildren constitute its main organizational technology, and it finds its final form during many out-of-school, out-of-class activities, events, excursions, walks, videos, games, reports and speeches, and meetings. The ideas and words, speeches and speeches of the great leader, the savior of the Republic of Azerbaijan, Heydar Aliyev, have formed the main technology of military patriotism education of the new generation of schoolchildren in our modern era. In military patriotism education, in contrast to the usual training and education process, setting an example, training, encouraging, persuading, instilling other methods in students, implementing the technology of organizing military patriotism education in secondary general education schools is reflected in the article.*

***Keywords:*** *military patriotism, schoolboy, technology, method, means*

### Giriş

Tərbiyə üsululunun geniş sahələrindən olan vətənpərvərlik və hərbi vətənpərvərlik tərbiyəsi bu gün böyüyən yeni və gənc nəslimizi daim düşündürən bir elm sahəsinə çevrilməkdədir. Bu gün

bu sahədə müasir və demokratik siyasət yürüdən Azərbaycan Respublikası və onun təhsil sistemi bu sahədə yeni mövzuların, elm və fənlərin axtarılmasında, aktual məsələlərin həllində bütün inkişaf etmiş ölkələri keçməkdədir. Əsası ailədə və məktəbəqədər təhsil müəssisələrində qoyulan, sonradan orta və ali təhsil müəssisələrində inkişaf etdirilən hərbi vətənpərvərlik tərbiyəsi müasir dövrümüzün tələblərinə uyğun quruların inkişaf etdirilməkdədir. Orta ümumtəhsil müəsissələrində bitkin formasını tapan hərbi vətənpərvərlik tərbiyəsi onun forma vastələri, metod və prinsipləri sahəsində təzahür edərək, təşkili texnologiyası ümumiləşmiş olur. Orta ümumtəhsil müəssisələrində məktəbin pedaqoji kollektivi bu işdə həmrəy olsalar da məktəblərdə hərbi vətənpərvərlik tərbiyəsinin aşılanması, mövzuların təhlil olunaraq dikursiyalı şəkildə şagirdlərə öyrədilməsi və bu sahədə onlarda həvəsin yaradılması məktəbin tarix, ədəbiyyat, çağrışaqədərki hazırlıq müəlliminin öhdəsinə düşməkdədir. Aparılan tədqiqatlar sübut etmişdir ki, müəllim ilə şagird arasındakı vətənpərvərlik mövzusunda təhlil olunan məsələlər məktəblilərin yaddaşlarında dərin kök salmaqla bərabər, onlarda hərbi bilik, bacarıq və vərdişlərin formalaşmasına gətrib çıxarmışdır. Bu sahədə şeirlər, məqalə və dissertasiya və dərsliklər yazan X.Fətəliyev, F. Əliyev, Şair Ramaldanov, Abdulla Qurbani və başqa-başqa dövrümüzün alim və pedaqoqları bu sahədə məktəblilərə geniş hərbi vətənpərvərlik tərbiyəsi sahəsində biliklər verməklə yanaşı onun öyrədilməsində və inkişafında xüsusi yerləri olmuşdur. Azərbaycanın təhsil sistemində vətənpərvərlik və hərbi vətənpərvərlik sahəsində qabaqcıl addımlar atan X.Fətəliyev məktəblilərə hərbi vətənpərvərlik tərbiyəsinin pedaqoji, fəlsəfi və psixaloji əsaslarını izah etməklə bu işin səmərəli təşkili texnologiyasını öyrətmiş oldu. Onun bu sahənin orta ümumtəhsil məktəblərində öyrədilməsi terxnologiyasını açmazdan evvəl hərbi vətənpərvərlik tərbiyəsinin nəzəriyyəsinə fəlsəfi baxışı belə izah etmişdir:

-vətəni müdafiəyə milli baxışdır;

-respublikamızın daxilində yaşayan millətlərin dostluğudur;

-milli vətənpərvərlik və dünya xalqları arasında dostluqdur;

-öz suverənliyi uğrunda mübarizə aparan dünya ölkələri xalqları ilə dostluq əlaqələrimizdir;

Hərbi vətənpərvərlik tərbiyəsinin psixoloji əsaslarını aydınlaşdırarkən ilk növbədə şəxsiyyətin formalaşmasının pisxoloji mexanizminə toxunmağı vacib bilərək aşağdakı əsasları şagirdlərin hərbi vətənpərvərlik tərbiyəsində pisxalaoji varlığın mövcudluğundan danışaraq qeyd etmişdir ki;

-intelektual keyfiyyətlər konponeti;

-iradi keyfiyyətlər;

-soyal pisxoloji konponetlər;
kimi əsaslar məktəbin pedaqoji kollektivi tərəfindən aşılanmaqla əhatə olunması vacib məsələ doğura bilər (Fətəliyev, X, 1987, s. 137)

Hərbi vətənpərvərlik tərbiyəsinin özünün xüsusi qanunauyğunluqları vardır. Tərbiyənin bu sahəsi təşkil edərkən onu həmin qanunauyğunluqları nəzərə alınmalıdır. Bu qanunauyğunluqlara əməl olunduqda hərbi vətənpərvərlik tərbiyəsi də düzgün yerinə yetrilir. Həmin qanunauyğunluqlar aşağdakılardan ibarətdir.
- hərbi vətənpərvərlik tərbiyəsinin elmi dünyagörüşü ilə şərtlənməsi qanunauyğunluğu;
- hərbi vətənpərvərlik tərbiyəsinin demokratik humanizm ilə əlaqəsi qanunauyğunluğu;
- hərbi vətənpərvərlik tərbiyəsinin beyləlmiləl tərbiyə ilə vəhdəti qanunauyğunluğu;

Pedaqoq alim hərbi vətənpərvərlik tərbiyəsində məktəblilərə bu tərbiyə növünün elmi dünyagörüşünün, müstəqilliyin, xalqlar ilə dosluq münasibətinin qurulmasının əsas vastə olduğunu vurğulamışdır (Fətəliyev, X, 1987, s. 138).

**1. Hərbi vətənpərvərlik tərbiyəsi texnologiyasının məzmunu:**

Hərbi vətənpərvərlik tərbiyəsinin təşkili texnologiyası onun təlim və dərsdənkənar məğələlər zamanı öyrədilməsi daha məqsədə uyğun hesab etmək olar. Araşdırmalar zamanı məlum olur ki, dərsdənkənar tədbirlərdə məktəblilərin hərbi vətənpərvərlik tərbiyəsinin texnologiyasından istifadə etməklə bu hisslərin formalaşdırılması üçün geniş imkanlar vardır. Çünki dərsdənkənar tədbirlər vastəsilə şagirdlərin hərbi vətənpərvərlik tərbiyəsinin inkişafı üçün orta ümumtəhsil məktəblərində hər cür şərait, imkan və matrial mövcuddur. Məktəblilərin dərsdənkənar hərbi-vətənpərvərlik tərbiyəsi ümumtəhsil məktəblərində pedoqoji kollektivin qarşısında duran ən mühüm vəzifələrdən biridir. Necə ki, orta ümumtəhsil müəssisələrində məktəbləri hərbi vətənpərvərlik tərbiyəsinin inkişafı və öyrədilməsi tenologiyasını yaş qurupuna görə təsnif olununaraq onları 1-4-cü siniflər, 5-8-ci siniflər və 9-11-ci siniflərdə müəyyən mərhələlər üzrə təşkil olunur və fənlərin tədrisi zamanı şagirdlərin hərbi bilik və bacarıqlarının artırılması əsas hədəf götrülürdü.

Kiçik yaşlı məktəblilərin Vətənin müdafiəsinə hazırlanması prosesinin formalaşması onların malik oldukları məhdud həyat təcrübələri, aldıklarıbiliklərin həcmi və xarakteri,təlim və tərbiyənin ümumi vəzifələri nəzərə alınmaqla qurulur. Bu dövrdə onun səmərəliyi hər şeydən əvvəl keçrilən nümumtəhsil fənlərinin tədrisi ilə sıx surətdə əlaqədar olmasından irəli gəlir.

İbtidai siniflərdə uşaqlar “müstəqillik”, “müstəqil Respublika”, “Qarabağ döyüşləri”, “Azərbaycanın Milli Ordusu” kimi ifadələrin mənasını konkret materiallardan öyrənir və başa düşürlər. Kiçik yaşlı şagirdləri H. Əliyevin həyatına və fəaliyyətinə, müasir gənclərin vətəndaşlıq mövqeyinə, döyüş qəhrəmanlarının göstərdikləri şücaətə maraq göstərirlər. Vətənin müdafiəsi haqqında proqramda nəzərdə tutulan məlumatlar və tarixi faktlar, tədris olunan bütün fənlərin məzmununda görünən Vətən mövzusu ilə vəhdət təşkil edir. Kiçik yaşlı məktəblilər müxtəlif qoşun növünə, hərbi texnikaya, atıcılıq silahlarının növlərinə, hərbi geyim formasına maraq göstərirlər. Qeyd etmək lazımdır ki, bütün hərbi vətənpərvərlik tərbiyəsi işinin səmərəli olması, Vətənin müdafiəsi barəsində şagirdlərin biliyinin, onların mənəviyyatının, emosionallıqlarının, əqidə iradələrinin nə dərəcədə sistemli formalaşmasından asılıdır. Yadda saxlamaq lazımdır ki, kiçik yaşlı məktəblilər üçün vətənpərvərlik xarakterində oyun formasının böyük əhəmiyyəti var. Təşkil olunmuş və yaxud öz-özünə yaranmış belə oyunlar daha qiymətli olurlar. Şagirdlərin hərbi vətənpərvərlik tərbiyəsində ailənin də böyük rolu var. Azyaşlı şagirdləri müharibə iştirakçıları, ordu və donanma veteranları olan qohumların bioqrafiyası ilə tanış etmək, dövlət mükafatlarına düzgün münasibət formalaşdırmaq lazımdır. Orta yaşlı şagirdlərin hərbi vətənpərvərlik tərbiyəsinə onların psixaloji inkişaf xüsusiyyətləri əlverişli şərait yaradır. Onlarda, faktların və hadisələrin gerçəkliyini təhlil etmək və ümumiləşdirmək istəyi, ətraf mühitə öz baxışları meydana gəlir. Bu yaşda yeniyetmələrin marağı daha sabit, müxtəlif olur, onların ətraf mühitə təmasda olmaqlarından irəli gələn, bütün ictimai faydalı əmək növlərində iştirak etmək istəklərini büruzə verir. Bu səbəbdəndir ki, hərbi vətənpərvərlik fəaliyyətinə onlarda böyük maraq doğur.Yeniyetmələrdə Vətən müharibəsinə hazır olmağın formalaşması bir çox obyektiv və subyektiv səbəblərdən asılıdır. Obyektiv səbəblərdən ən əhəmiyyətlisi məktəbdə və məktəbdənkənar təşkil olunmuş hərbi vətənpərvərlik tədbirlərində şagirdlərin iştirakıdır. Gələcək Vətən müdafiəçisi şəxsiyyətinin formalaşmasının əsası onun tədrisə olan marağıdır. Bu yaşda olan şagirdlər ictimai həyatda olan hadisələrə öz yeni münasibətini bildirməyə imkan verən elmləri öyrənməyə başlayırlar. Bu yaş həddi üçün humanitar, dəqiq elmlər, fiziki tərbiyə dərslərinin xüsusi əhəmiyyəti var. Bu dövrdə şagirdlər “Vətənin müdafiəsi”, Azərbaycan əsgəri”, “Hərbi and”, “hərbi nizamnamələr” kimi anlayışların daha dərin mənasını dərk edir, Vətənin və onun Silahlı Qüvvələrinin müdafiə qüdrətinin əsasını iqtisadiyyatımızın güclü olması təşkil etdiyini başa düşməyə başlayırlar.

Ulu öndər Heydər Əliyev qeyd etdiyi kimi *“Bizim məktəblilərimizin əsas vəzifəsi müasir tələblərə cavab verən səviyyədə elmi təhsil almaqdır. Həmçinin bu günün aktual problemlərindən*

*biri də məktblilərin yüksək vətənpərvərlik ruhunda tərbiyələndirməkdir. Çünki vətənpərvərlik olmayan yerdə nə birlik, nə də hərbi bilik, bacarıqdan söz gedə bilməz*" (Əliyev, 2002, s. 420).

5-8 –ci sinif şagirdləri ehtiraslı vətənpərvərdirlər. Bütün qabaqcılların tərəfdarıdırlar.onlar müharibə iştirakçıları, qazilər ilə görüşlərdə Silahlı Qüvvələrin əsgərləri ilə dosluq münasibətləri yaratmaqla fəallıqla iştirak edir, qoşun növlərinin tarixi və geyim formaları ilə, fərqləndirmə nişanları ilə, hərbi texnika ilə maraqlanır, hərbi texnika modelləşdirmədə böyük maraqla iştirak edir, hərbi idman oyunlarında, müxtəlif yarışlarda iştirak edirlər. Yer üzərində sülh, ədalətlilik və hüquq bərabərliliyi problemləri onları düşündürür və narahat edir. Yaxşı olar ki, şagirdlərin bu istəkləri, canfəşanlıqları həm müəllimlər tərəfindən, həm də valideyinlər tərəfindən stimullaşdırılsın, inkişaf etdirilsindərinləşdirilsinki, daha təsirli tarakter alsın. Bu baxımdan yeniyetmələrin imkanlarına ehtibar etmək əhəmiyyətli məna kəsb edir. Çünki, onlardan bəzilərində yaxşılardan gələn hər şeyə əks münasibət var, bu onların tələbidir. Vacibi odur ki, müəllim şagirdin fəallığını, səfini vaxtında görsün və qiymətləndirsin. Bu yaşda uşaqlar artıq Azərbaycan Respublikasının Silahlı Qüvvələrinin strukturu və təyinatı hadqa, müasir silah, sursat, texnika və onların bacarıqla idarə olunması, elektronika, kibernetika, avtomatlaşdırma və.s haqqında geniş biliyə malik olurlar.Yuxarı 9-11-ci sinif şagirdləri insanın elmi dünyagörüşünün, zehninin və fiziki cəhətdən inkişafı, gələcək həyat yolunu müəyyən etmək dövrüdür. Bu yaşda gənclərin düşüncələri daha yetgin olur, sistemlilik, müntəzəmlilik, əldə edir, dərin ümumiləşdirmələrə girişə bilirlər.

İlk gənclik dövründə dünyagörüşü axtarışı güclənir,dünyanı öz gördüyü kimi dərk etməyə çalışır və ona öz münasibəti olur. Gənc oğlanlar və qızlar təkcə öz kollektivlərinin həyatında deyil, bütövlükdə cəmiyyətimizin həyat fəaliyyətində iştirak etmək arzusunda olur. Vətəni müdafiəsinə daim hazır olmaq prinsipi altında formalaşır. Bu təkcə Böyük Vətən müharibəsi, birinci Qarabağ döyüşləri qəhrəmanları deyil, eyni zamanda tariximizə Aprel döyüşləri, ikinci Qarabağ müharibəsi adı altında qəhrəmanlıq zirvəsinə yüksələn sərkərdələrimizin bir zaman məktəbliykən, şagirdkən içlərində doğan Vətən eşqi, millət eşqi, torpaq vurğunu olmasıdır. Ona görə də təlim tərbiyə prosesidə şagirdlərə yalnız keçmiş müharibənin hadisələri, Azərbaycan xalqının kütləvi qəhrəmanları haqda biliklər verməklə kifayətlənməyərək, həm də onlarda Vətənin müdafiəsinə dair təcrübələrin formalaşmasına nail olmaq lazımdır (Əsgərov, 2000, s. 38).

**2.Hərbi vətənpərvərlik tərbiyəsi texnologiyasının formaları:**

Hərbi vətənpərvərlik tərbiyəsinin texologiyasından danışarkən təkcə dərsdə və ictimai tapşırığı yerinə yetirən zaman formalaşmır, onlar həm də dərsdənkənar sinifdənxaric tapşırıqlar yerinə yetirərkən də formalaşmış olur.

- Müasir dövrümüzdə məktəblilərə hərbi vətənpərvərlik tərbiyəsinin təşkili texnologiyasında Ulu öndər Heydər Əliyevin yaradıcılıq yolu, sərkərdəlik yolu, müstəqil Azərbaycanın quruculuğu, ordu quruculuğu və hərb siyasəti sahələrindəki xidmətləri, eyni zamanda Heydər Əliyevin muzeyinə ziyarətlərin təşkil olunması, təşkil olunan söhbətlər və məruzələr;
- Azərbaycan Ordusunun qazandığı tarixi naliyyətlərdən, sülh və müharibədən, şəhidlər və qazilər haqqında nəzəri mühazirələr, söhbətlər, dikursiyalı verlişlər təşkil etməklə;
- Döyüş şöhrətli ev muzeylərinə (Həzi Aslanov, xan sarayı, Cəmşid Naxçıvanski, Heydər Əliyev və.s) yerlərə ekskursiyvə gəzintilər təşkil etmək;
- Müharibə iştirakçısı, veteranlarla, Azərbaycan Respublikasının Silahlı Qüvvələrinin hərbi qulluqçusu, müharibədə yeni gəlmiş (qazi olmuş) hərbiçiləri ilə görüşlərin təşkili;
- Şəhid olmuş hərbi qulluqçuların ailləəri ilə maraqlı söhbətlərin aparılması, şəhidlər xiyabanına ziyarətin təşkil olunması, abadlaşdırılması kimi işlərin həyata keçrilməsi;
- Hərbi vətənpərvərlik mövzusunda ən yaxşı hekayə, inşa, rəsm və fotosesya keçrilməsi;
- Hərbi idman oyunları "cəsurlar", "şahinlər" təşkil olunması ilə məktəblilərin həm fiziki cəhətdən gümrah, sağlam həyat tərzinə malik olmaları, həm də hərb sənətinə, peşəsinə yiyələnməklə hərbi bilik, bacarıq, vərdişlər ilə silahlanmaqla gələcəkdə Azərbaycan Respublukasının Silahlı Qüvvələrinin ordu siralarında nümunəvi əsgər kimi xidmət etməsini, eyni zamanda müasir silah, sursat texnikanı ustalıqla bacarmaq məharəti formalaşdırmış olur;

Hərbi vətənpərvərlik tərbiyəsinin məktəblilərə bu yol və vastələrlə çatdırılması texnologiyası onun dərsdənkənar tədbirlərində öz əksini tapmış olur. Məktəblilərin hərbi vətənpərvərlik tərbiyəsinin formalaşdırılması üçün geniş imkanlar yaranmasına səbəb olur. Çünki dərsdənkənar tədbirlər vastəsilə şagirdlərin hərbi vətənpərvərlik tərbiyəsinin inkişafı üçün orta ümumtəhsil məktəblərində hər cür şərait, imkan və matrial mövcuddur. Doğrudan da yetişən nəslin nümayəndələrinin bilik, bacarıq, vərdişlər sisteminə yiyələndirilməsi ilə yanaşı, onların tərbiyələndirilməsi də qarşıda duran təxirəsalınmaz vəzifələrdəndir. Bu vəzifələrin müvəffəqiyyətli həlli üçün dərsdənkənar tədbirlərin gücündən səmərəli istifadə etmək lazım gəlir. Çünki

dərsdənkənar tədbirlərdə, o cümlədən tarixi hadisələrlə əlaqədar olan kütləvi tədbirlərdə, maraq kurslarında, dərnəklərdə, məktəb studiyalarında, döyüş şöhrətli ev muzeylərində, hərbi kabinələrdə, ekskursiyalarda şagirdlərin hərbi vətənpərvərlik tərbiyəsinin inkişaf etdirilməsi üçün imkanlar və yollar çoxdur.

**Ədəbiyyat siyahısı**

Əliyev, H.Ə. (2002). *Təhsil millətin gələcəyidir*. Təhsil nəşriyyatı.

Əsgərov, İ. B. (2000). *Hərbi vətənpərvərlik tərbiyəsinin əsasları.* Bakı.

Fətəliyev, X. (1987). *Məktəblərdə hərbi vətənpərvərlik tərbiyəsi.* Marif.